Azərbaycan Texniki Universitetinin (AzTU) maliyyələşmə mexanizmi adambaşına maliyyləşmə mexanizmi prinsipinə uyğun formalaşır. Yəni AzTU-nun tələbəsi olmaq hüququ qazanmış hər bir tələbə müvafiq miqdarda maliyyə hesabına təhsil alır. Beləliklə, AzTU tələbələrə təhsil xidmətləri göstərmələri üçün maliyyə daxil olmaları aşağıdakı mənbələr hesabına formalaşır:

- Dövlət hesabına təhsil almaq hüququ qazanan tələbələrin əldə etdikləri statusa uyğun dövlət tərəfindən daxil olan maliyyə vəsaiti;
- Dövlət hesabına universitetə daxil olan tələbələr üçün nəzərədə tutulan təqaüd;
- Tələbə statusu qazanmış lakin maliyyəsi tələbələrin özləri tərəfindən qarşılanan ödənişli əsaslarla təhsil alan tələbələrin ödədikləri maliyyə vəsaiti.

Bundan başqa bir sıra digər fəaliyyət növlərindən də maliyyə vəsaitləri Universitetə daxil olur:

- elmi tədqiqat fəaliyyətinin yerinə yetirilməsi zamanı ikitərəfli müqavilələr əsasında əldə olunan gəlirlər,
- elm və ali təhsil qrant layihələrindən əldə olunan gəlirlər
- bir sıra digər xidmətlərdən əldə olunan gəlirlər.

2023-cü ili əhatə edən maliyyə ilində dövlət sifarişli əsaslarla təhsil alanların ümumi gəlirdə payı 59 % , ödənişli əsaslarla təhsil alanların 32 % ,digər gəlirlərdən formalaşan gəlir isə 9 % olmuşdur. Mövcud maliyyə qaydalarına uyğun olaraq əldə olunan gəlirlər üst təşkiladın təsdiqlədiyi büdcəyə üyğun olaraq xərclər istiqamətində istifadə edilir.

AzTU dayanıqlı maliyyələşməni təmin etmək məqsədilə müxtəlif təhsil xidmətləri göstərməklə yeni maliyyə mənbələri yaratmaq üşün lazımi potensial və imkanlara malikdir. Bu istiqamətdə hazırlıq işləri aparılçmaqdadır.

AzTU-nun xərcləri aşağıdakı fəaliyyətlərə sərf olunur:

- Əmək haqqı və onunla bağlı məcburi dövlət sosial sığorta haqları,
- Təsərrüfat xərcləri, dəftərxana və digər mal materiallar,
- Kommunal xidmətləri ilə bağlı xərclər,
- Maddi texniki bazanın gücləndirilməsi üçün maşın və avadanlıqların satın alınması,
- Elmi tədqiqat xidmətləri, təcrübə və müayinələrin haqqının ödənilməsi.